# MİNİATÜRÜN MÜASİRLİYİ

**Ziyadxan Əliyev**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi

Azərbaycan təsviri sənətinin qədim tarixə və zəngin bədii ənənələrə malik mənəvi sərvət kimi dünyada tanınmasında miniatür üslubunun əvəzolunmaz rolu var. Divar rəsmlərindən başlayıb dekorativ-tətbiqi sənətin müxtəlif növlərində, daha sonra kitab qrafikasında və dəzgah rəngkarlığında bədii ifadə vasitəsi kimi tətbiq olunan bu üslubun estetikasındakı müasirlik ruhu bütün dövrlər üçün gərəkliliyini şərtləndirmişdir.

Üslubun evolyusiya xəritəsinə nəzər yetirsək, bu gün müasir görünə biləcək ən müxtəlif mövzu və ideyaların ondan cəlbedici və yaddaqalan bədii tutum almasında istifadəsini görə bilərik. Buna çağdaş Azərbaycan təsviri sənətində klassik miniatür ənənələrinə özünəməxsus münasibət sərgiləyən Pərinisə Əsgərovanın müxtəlif janrlı əsərlərinin timsalında əmin olmaq mümkündür.

Təhsilsonrası bu qədim üsluba sonsuz sevgi nümayiş etdirən rəssamın məhsuldarlığı ilə seçilən yaradıcılığındakı bədii şərhlər ənənəyə tapınılmış bədii təfsir nümunələri kimi yadda qalır. Bunu şərtləndirən başlıca amil həmin təfsirlərin duyulası dərəcədə mütərəqqiliyidir.

Davamlı axtarışlar nəticəsində miniatürün əbədi modernizm daşıyıcısı olduğuna bütün varlığı ilə əmin olan P.Əsgərova, ərsəyə gətirdiyi miniatür nümunələrində üslubun müəyyən sənət növü olduğuna və zaman çərçivəsində qalmadığına başqalarını inandıra bilmişdir. Əyani göstəricisi onun mövzu dairəsinin "Dədə Qorqud"dan başlayaraq "Azərbaycan" kimi müasir mövzuları və obrazları əhatə etməsidir.

Etiraf edək ki, uzun illər ərzində xalqımızın dünya miqyasında həm də "tanınma nişanı"na çevrilən miniatürün tədqiqi çox vaxt Qərb və Rusiya sənətşünaslarının subyektiv yanaşması ilə təqdim olunduğundan, onun əhatə dairəsinin məhdudluğu qənaətinə gəlinib. Belə bir qənaətin təbliğinin indiyə qədər davam etməsinə yalnız təəssüflənmək olar.

Əslində isə müsəlman-türk bədii məkanında əsasən orta əsrlərdən başlayaraq təsviri və tətbiqi sənətin bütün sahələrində ortaq



üslub kimi istifadə olunan miniatür, həm də bədii-fəlsəfi çoxqatlılığına görə əksəriyyətin düşündüyü kimi, kitab qrafikası çərçivəsində qala biləcək bədii-mənəvi dəyər deyildir. Bunu miniatürün qədim divar rəngkarlığında, keramika, xalça, parça və metalişləmədə tətbiqi də təsdiqləyir.

Əgər üsluba dair bu danılmaz həqiqəti bizə daha yaxın XX əsrlə əlaqələndirməli olsaq, onda gənc rəssamlarımızın otuzuncu illərdə miniatür ənənələrinə müraciətlərini və yerli ideoloqların sərt təpkisi ilə qarşılandıqlarını deməliyik. Zamanında bunun həm də təhlükəli olduğunu vurğulamaqla, həmin gənclərin əksəriyyətinin tutduqları yoldan geri çəkildiklərini qeyd etməliyik.

Həmin əsr ərzində bir neçə dəfə miniatürə qayıdış cəhdi baş tutsa da, bütünlükdə arzulanan nəticə əldə olunmadı və yalnız müstəqillik illərində bu sahədə böyük irəliləyiş baş verdi. İki dəfə keçirilən "Şərqdən-şərqə" sərgisinin nəticələri göstərdi ki, yetişməkdə olan gənc nəslin nümayəndələri arasında miniatürə yeni nəfəs vermək istəyən yaradıcılar da az deyil. Onlardan birinin - Pərinisə Əsgərovanın klassik üsluba marağı isə davamlı oldu.

Bir yaradıcı kimi onu başqalarından fərqləndirən önəmli xüsusiyyət miniatürü "ənənəvi"ləşdirilən kitaba bağlılıqdan - illüstrasiyaçılıqdan çıxara bilməsidir. Görünür rəssamın miniatürdə nəhayətsiz modernizm estetikası aşkarlamasının nəticəsidir ki, o, əski motivlərlə yanaşı, kifayət qədər müasir və aktual mövzuları belə "miniatür dili" ilə inandırıcı tutumda əyaniləşdirməyi bacarmışdır. Belə nailiyyətlərin qazanılmasında heç şübhəsiz, milli mənəvi qaynaqlarımızın alt qatına nüfuz etməyi bacarmış Xudu Məmmədov, Siyavuş Dadaşov, Faiq Əkbərov, Elçin Aslanov və Sənan Qurbanov yanaşmasının yaradıcılıqla təhlili və tətbiqinin az rolu olmamışdır.

Bütün bunlar ona hamının gördüyü həqiqətlərin içində çoxlarının görə bilmədiyi gözəllik qaynaqlarını tapmağa imkan verib. Hamıya ilğım kimi görünə biləcək görüntülər onun təfsirində özünəməxsus bədii görkəm aldığından tamaşaçısını duyğulandırmaqla yanaşı, həm də qürurdoğurucu və fikirpaylayıcıdır. Rəssamın "Dədə Qorqud", "Əsli və Kərəm" və "Çeşmə başında" əsərlərində dəfələrlə bədiiləşdirilmiş motivlərə yeni müəllif baxışını müşahidə etdiyimiz halda, "Səmazənlər", "Mentalitet" və "Sancı" lövhələrində təzadlardan "boylanan" insan yaşantılarına tutulan "bədii güzgü"nün şərti-dekorativ tutumunda mənəvi-psixoloji dəyərlərin düşündürücü-yaddaqalan bədii şərhini görürük...

Bütün yaradıcılığı boyu "Rənglər mənim ahımdır" deməkdən usanmayan və həmin qənaəti yaradıcılıq kredosuna çevirən Pərinisə xanımın düşüncələrinə verdiyi bədii şərhlərdə portretlərə obrazlı yanaşmanın fəlsəfəyə bələnməsinə şahidlik mümkündür. Onun müxtəlif məna daşıyıcılı ayrıntılardan "hörülmüş" "Dədə Qorqud", "Füzuli yaşantısı", "Savaşçı" və "Mentalitet" əsərlərində məşhurların və tanınmayanların ömür yolunun dərkinin müəllif obrazlı-düşündürücü yozumu ilə qarşılaşırıq.

Deyilənləri "Dədə Qorqud" əsəri timsalında izləməli olsaq, müdriklər müdrikinin portretinin qabarıq təqdimatında müəllifin klassik ifadə vasitəsi əvəzinə, müxtəlif insan, heyvan və əşya təsvirlərini əzaların ifadəsinə yönəltməsini

xüsusi qeyd etmək lazımdır. Doğrudan da qaşları dəvə, gözün bəbəklərini ceyran, burunu qopuz, ağız və saqqalı çadır, başın saçlarını dəvə ilə ifadə etməsində, portretin tünd yerliyinin Qobustan qaya rəsmləri və döyüş əlbəsələri ilə bəzədilməsində nümayiş olunan bədii məntiq və inandırıcılıq yaddaqalan stilizə ilə ifadə olunduğundan, gözlənilməz təqdimat kifayət qədər heyrətdoğurucudur.

Rəssamın "Füzuli yaşantısı" əsərində isə görkəmli söz xiridarının obrazının açımına yanaşma bir qədər fərqlidir. Oturmuş vəziyyətdə görüntüyə gətirilmiş şairin gözləri qapalı, boynu bükük durumunda dillər əzbərinə çevirdiyi məhəbbət dastanının qəhrəmanları Leyli və Məcnun sevgisinin nakamlığında özünü günahkar saymaq yaşantısı duyulmaqdadır. Aşiqlərin isə çöhrələri görünməsə də, onların şair obrazını əhatələyən dağınıq saçlarının ifadəli ritmində öz "yaradıcı"larını ovutmaq istəyi hiss olunur. Əsərin ümum koloritini təşkil edən mavi, qara və qızılı rənglərin harmoniyasının yaratdığı ovqatda da daha çox ümidsizlik sezilir.

Bədii həllinə görə kifayət qədər maraqlı görünən "Savaşçı" əsərində "Dədə Qorqud"la səsləşən nisbi məqamlar olsa da, əslində, buradakı şərh xeyli yenidir. Ümumi görüntüsü duyulası dərəcədə cəlbedici olan savaşçının ifadəli siluetinin kiçik ölçülü təsvirlərlə doldurulması miniatür üslublu əsərlər üçün yenidir. Əli qılınclı və qalxanlı döyüşçünün ümumi təsvirinə daxil edilmiş döyüş səhnələrinin obraza dinamika bəxşi, ilk növbədə müəllifin rəng təzadlarından harmoniya və bədii bütövlük əldə etməsinin göstəricisi sayıla bilər.

Heç şübhəsiz, bu qədər "ayrıntı məcmusu"nu bütövlüyü adi gözlə belə, görünən mənəviyyat qaynağına çevirmək ilk növbədə müəllifin onu duyğulandıran qaynaqlara dərindən bələdçiliyindən irəli gəlir. Elə bu məziyyətin özü P.Əsgərovanın klassik üslubun ruhi mahiyyətini daha da zənginləşdirmək potensialını nümayiş etdirir.

Pərinisə Əsgərovanın miniatür üslubunun müxtəlif mövzu və portretlərə tətbiqi kimi çətin yaradıcılıq məsələsinin öhdəsindən gələ bilməsini böyük sənət uğuru hesab etmək olar. Bu mənada onun yuxarıda təsvirlənən portretləri ilə yanaşı, Şah İsmayıl Xətai və Nadir şah Əfşar obrazlarına müraciəti nə qədər axtarış tələb edən olmayıbsa, müasir türkiyəli həmkarı Taner Alakuş, sənətşünas Cəmilə Həsənzadə və millət vəkili Qənirə Paşayevanın portret cizgilərini qədim üsluba uyğunlaşdırması duyulası dərəcədə çətindir.

Müəllifin "Peyğəmbərin mərhəməti"ndə və "Sudan bezmiş balıqlar"da ifadə etdiyi məna-məzmun yükündə də davamlı axtarışların uğurlu nəticəsi, tamaşaçısına düşünmək imkanı verən bədii-psixoloji məqamlar kifayət qədərdir.

Onun miniatür üslublu əsərlərin "estetik xəritəsi"nə yeni çalarlar əlavə etmək gücündə olan "nyu"ları ("Vəhdət" və "Bəzənmək") da ecazkardır. Həm də bədii cəsarət nümunəsi sayıla biləcək bu lövhələrdə bədii bütövlüyə yüksəlmənin mənəvi-yaradıcı vəhdətdən keçdiyi qabarıq duyulmaqdadır. Rəssamın üslubunun keramika nümunələrində tətbiqi də ifadə çərçivəsinin doğrudan da genişliyini təsdiqləyən amillərdəndir.

Sonda əlavə edək ki, Ə.Hüseynzadə adına Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin məzunu olan Pərinisə Əsgərovanın iyirmi ili əhatə edən müstəqil yaradıcılığında yaradıcı "mən"ini təsdiqləyə biləcək estetik qaynaqlar kifayət qədərdir. Bu isə onun ən böyük mənəvi qazancıdır desək, həqiqəti söyləmiş olarıq... ❖


**Ədəbiyyat:**

1. Azərbaycan incəsənəti (monoqrafiya). "İşıq", Bakı. 1992. 344 səh.
2. Kərimov K. Azərbaycan miniatürləri. "İşıq", Bakı. 1980. 220 səh.
3. Денике Б. Живопись Ирана. «Искусство», Москва. 1938. 155 стр.
4. Каджар Ч. Искусство Азербайджана. «Оскар», Баку. 2010. 348 стр.
5. Казиев А. Художественное оформление Азербайджанской рукописной книги XIII-XVII веков. «Книга», Москва. 1977. 360 стр.



**Резюме**

Зиядхан Алиев

СОВРЕМЕННОСТЬ МИНИАТЮРЫ

Автор подчёркивает, что стиль миниатюры сыграл незаменимую роль в признании азербайджанского изобразительного искусства в мире по той причине, что является духовным сокровищем народа. Дух современности в эстетике этого стиля, который начинался с его росписей и применялся в различных видах декоративно-прикладного искусства, а затем в книжной графике и как средство художественного выражения станковой живописи, сделал его необходимым на все времена.



**Ключевые слова:** миниатюра, традиция, современность, стиль, стилизация, штрих, образность, художественный, креатив.



**Summary**

Ziyadxan Aliyev

MODERNITY OF MINIATURE

The author emphasizes that the style of miniature has played an irreplaceable role in the recognition of Azerbaijani fine arts in the world as a spiritual treasure with an ancient history and rich artistic traditions. The spirit of modernity in the aesthetics of this style, which began with its murals and applied in various types of decorative-applied art, and later in book graphics and as a means of artistic expression of bench painting, made it necessary for all times.



**Key words**: miniature, tradition, modernity, style, stylized, animated, figurative, artistic, creative